AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ
# RESPUBLİKA
TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ
5 YANVAR 2019-cu il ŞƏNBƏ № 02 (6329) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## Beyləqan rayonunun Mingəçevir-Stansiya Mingəçevir-Bəhrəmtəpə (137 km)-Beyləqan avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** İyirmi altı min nəfər əhalinin yaşadığı 7 yaşayış məntəqəsini birləşdirən Mingəçevir-Stansiya Mingəçevir-Bəhrəmtəpə (137 km)-Beyləqan avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 14,6 milyon (on dörd milyon altı yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 4 yanvar 2019-cu il.**

## Ədliyyə Nazirliyində müşavirə keçirilib

**Ədalət mühakiməsinin səmərəliliyinin artırılması ilə bağlı həyata keçirilən tədbirlər çərçivəsində dövlətimizin başçısının qanunvericilik təşəbbüsü ilə 2018-ci il dekabrın 28-də Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində və “Məhkəmələr və hakimlər haqqında” Qanunda əsaslı dəyişiklikləri nəzərdə tutan yeni qanunlar qəbul olunub.**

Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, məhkəmə fəaliyyətinin təkmilləşdirilməsində, işin səmərəliliyinin və keyfiyyətinin artırılmasında, iş yükünün azaldılmasında, “Elektron məhkəmə” sisteminin tətbiqinin genişləndirilməsində müstəsna əhəmiyyət daşıyan, qanunvericiliyə edilən mütərəqqi dəyişikliklər, həmçinin məhkəmələrdə şəffaflığın və aşkarlığın artırılmasına, işlərə daha operativ baxılmasına, vətəndaşların hüquqlarının təmin olunmasına xidmət edəcəkdir.



Yeni qanunvericiliyin icrası ilə bağlı məsələlər təxirəsalınmadan ədliyyə naziri Fikrət Məmmədovun sədrliyi ilə keçirilmiş müşavirədə müzakirə olunub.

Müşavirədə qarşıda duran vəzifələrin, o cümlədən qanunvericiliyin yeni müddəalarının dürüst və vaxtında icrasının təmin olunması, onların mahiyyətinin dərindən öyrənilməsi və e-məhkəmənin imkanlarından səmərəli istifadə olunmaqla düzgün tətbiqi, bu məqsədlə Ədliyyə Akademiyası ilə birgə ali və apellyasiya məhkəmələrinin təlimçi hakimlərinin iştirakı ilə paytaxtda və respublikanın bütün bölgələrində silsilə təlimlərin və hüquqi maarifləndirmə tədbirlərinin keçirilməsi müəyyən olunub. Eyni zamanda, normativ-hüquqi aktların yeni qanunvericiliyə uyğunlaşdırılması, məhkəmə fəaliyyətini tənzimləyən sənədlərin təkmilləşdirilməsi ilə bağlı və digər konkret göstərişlər verilib.

Həmçinin məsələ ilə bağlı yaradılmış işçi qrupa qarşıda duran vəzifələrin icrası ilə bağlı xüsusi tədbirlər planının hazırlanması tapşırılıb.

**AZƏRTAC**

# Azərbaycan yüksək zirvələrə doğru inamla irəliləyir

**Çağdaş dünyamızın mürəkkəb və ziddiyyətli prosesləri fonunda müstəqil dövlət quruculuğu böyük zəhmət və uzaqgörənlik tələb edir. Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu müstəqil və demokratik dövlət quruculuğu kursu sürətlə yeniləşən dünyanın tələblərinə cavab verir. Ümummilli lider Heydər Əliyevin müdrik və uzaqgörən siyasəti 2003-cü ildən Prezident İlham Əliyev tərəfindən yüksək səviyyədə həyata keçirilir. 2003-cü ildən sonra 2008, 2013 və 2018-ci illərdə yenidən xalqın çox böyük əksəriyyətinin səs çoxluğunu qazanan İlham Əliyev prezidentliyi dövründə ulu öndər Heydər Əliyevin təməlini qoyduğu vətəndaş birliyi platformasına söykənərək ölkədaxili ictimai-siyasi sabitliyi daha da möhkəmləndirdi, insan hüquq və azadlıqlarının, vətəndaşların rifah halının yüksəlməsinə, ölkənin əmin-amanlığını təmin edilməsinə nail oldu. Prezident İlham Əliyev həmin kursu daim inkişaf etdirir və şəraitə uyğun olaraq islahatlar həyata keçirir, bununla Azərbaycanda keyfiyyətcə yeni inkişaf modeli reallaşır.**

Azərbaycanda müstəqil dövlət quruculuğunda əldə edilən bütün nailiyyətlər həm dövlətçiliyin güclənməsinə, həm də insanların rifah halının yüksəlməsinə xidmət edir. Bütün bunlar Azərbaycanda sosial-siyasi və iqtisadi sabitliyə səbəb olur. Bu kursu Prezident İlham Əliyev son 15 ildə böyük uğurla inkişaf etdirir. Yəni hər şeydən öncə, dövlət başçısı varislik prinsipinə ciddi əməl edir. 2003-cü ildən etibarən qürurla müşahidə etdiyimiz quruculuq və yüksəliş dövrü əslində 1969-cu ildən başlayan Azərbaycanın inkişaf salnaməsinin yeni mərhələsi, məntiqi davamıdır. Eyni zamanda müasir dünyamız sürətlə dəyişdiyindən, inkişaf modeli də təkmilləşməli, müasir tələblərə cavab verməlidir. Məhz bu aspektdə Prezident İlham Əliyev sözün həqiqi mənasında uzaqgörən və müdrik dövlət başçısı kimi özünü tam təsdiq etməkdədir. Ötən 15 illik dövrün cəmi bir neçə aspektinə diqqət yetirməklə Azərbaycanın hansı dinamizmlə inkişafını, milli maraqlarmızın beynəlxalq səviyyədə layiqincə təmin olunmasını, iqtisadiyyatın yüksəlişini görərik. Təbii ki, dövrün ən böyük uğurlarından biri iqtisadi artım və qeyri-neft sektorunun inkişafıdır. Ardıcıl və sistemli şəkildə həyata keçirilən sosial siyasət sayəsində insanların həyat şəraitinin yüksəldilməsi, rifahının yaxşılaşdırılması sahəsində böyük nailiyyətlər əldə edilir. Ölkəmizin dinamik inkişafı, sürətli tərəqqisi, həyata keçirilən əzəmətli layihələr, Azərbaycanın hərtərəfli yeniləşməsi, modernləşməsi doğma vətənimizi dünyaya yeni formada təqdim etməyə imkan yaradır. Bütün bu müsbət dəyişikliklər ulu öndərin müəyyənləşdirdiyi yolun davamıdır. Bu yüksəliş Heydər Əliyevin həm də uzaqgörən bir strateq olaraq müəyyən etdiyi inkişaf konsepsiyasının alternativsizliyini tam dolğunluğu ilə təsdiq edir. Praqmatiq liderlik keyfiyyətlərinə malik Prezident İlham Əliyev keyfiyyətcə yeni mərhələdə Azərbaycanın müasir dövlətə çevrilməsini və tam müstəqil siyasət yürütməsini milli ideyanın başlıca hədəfi kimi müəyyənləşdirib. İqtisadi məsələlərə xüsusi diqqətin ayrılması da əsaslı yanaşma olaraq dövlət müstəqilliyinin iqtisadi bazisini möhkəmlətmək, cəmiyyətin davamlı inkişafı üçün zəmin hazırlamaq məqsədindən irəli gəlib.

Ötən illərdə ölkəmizdə respublika iqtisadiyyatında islahatlar kursu inamla davam etdirilib, xüsusən də regional inkişafa, qeyri-neft sektorunun yüksəlişinə, infrastruktrun müasirləşdirilməsinə, neft amilindən asılılığın azaldılmasına sahibkarlığın inkişafına və güclü insan kapitalının formalaşdırılmasına xidmət edən mühüm addımlar atılıb. Prezident İlham Əliyev daxildə möhkəm ictimai-siyasi sabitliyə, qanunçuluğa nail olmadan, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu yolunda kompleks addımlar atmadan xarici siyasət sahəsində hansısa uğurlu nəticələr əldə etməyin qeyri-mümkünlüyünü dəfələrlə bildirib. Azərbaycanın həyata keçirdiyi siyasi strategiyanın mahiyyəti və məqsədləri milli çərçivəni aşaraq bəşəriyyətin gələcəyi naminə uzunmüddətli inkişafın təmin edilməsinə xidmət edir. Ölkə başçısının inam və əzmkarlıqla həyata keçirdiyi siyasi xətt, davamlı islahatlar Azərbaycan iqtisadiyyatının rəqabətədavamlılığını artırıb, respublikamızı sürətlə irəliləyən azsaylı dünya ölkələrindən birinə çevirib. Azərbaycanda müstəqil dövlətçiliyin qorunması ənənəsinin yaradılması ulu öndərin, dövlətimizin modernləşməsi və daha da güclənməsi milli iqtisadiyyatımızın sürətli inkişafı Prezident İlham Əliyevin adı ilə bağlıdır. Prezident İlham Əliyev ulu öndərin qurduğu təməl üzərində Azərbaycanın bir dövlət kimi dayaqlarını möhkəmləndirdi. Dövlət başçısının məqsədyönlü, konkret hədəflərə istiqamətlənmiş fəaliyyəti ölkənin siyasi və sosial-iqtisadi həyatı ilə bağlı problemlərin həllinə sistemli və kompleks yanaşmanı təmin edərək qarşıya qoyulan vəzifələri yerinə yetirmişdir. Səmərəli iqtisadi təşəbbüslərin müəllifi kimi tanınan Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə regionun ən perspektivli ölkəsinə çevrilmişdir. Dövlətin və xalqın inkişafı, yüksəlişi dünya birliyindəki yerinin müəyyən olunması ona rəhbərlik edən şəxslərdən əhəmiyyətli dərəcədə asılıdır. Tarix bunu hər bir güclü dövlətin təcrübəsində sübut edib. Müstəqil Azərbaycanın da 1993-cü ildən sonra yazılan tarixinə nəzər salsaq, bunu aydın görə bilərik. Məhz ulu öndər Heydər Əliyevin başladığı və bu gün Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi kurs güclü Azərbaycan dövlətinin qurulmasını, onun yerləşdiyi bölgənin liderinə, dünyada isə söz sahibinə çevrilməsini təmin edib. Bu gün ölkəmizdə ən müxtəlif sahələr üzrə davam edən inkişaf prosesləri məntiqi ardıcıllıqla bir-birini tamamlayır. Azərbaycanda güclü ordu qurulur, ölkəmizdə informasiyalı cəmiyyətin formalaşması, əldə edilən iqtisadi mənfəətlərin qloballaşan dünyanın ən qiymətli sərvəti rolunda çıxış edən insan kapitalına yönəldilməsi üçün məqsədyönlü addımlar atılır, informasiya texnologiyalarının son nailiyyətləri daha böyük sürətlə Azərbaycan həyatının ayrılmaz bir hissəsinə çevrilir. Bütün bunlarla paralel ölkədə aparılan demokratik islahatlar getdikcə daha geniş vüsət alır, insan hüquq və azadlıqlarının təminatı sistemi daha da mükəmmələşdirilir, Azərbaycanda tolerant bir mühitin dayanıqlığına şərait yaradan əsaslar möhkəmləndirilir. Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqının multikultural ənənələrinin qorunması sahəsində həyata keçirilən siyasi xətt hazırda Prezident İlham Əliyev tərəfindən inamla davam və inkişaf etdirilir. 2016-cı ilin Azərbaycanda “Multikulturalizm ili” elan olunması bunun bir daha bariz göstəricisidir. Xalqımızın ümummilli lideri Heydər Əliyevin söylədiyi “Hər bir xalqın milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən fəxr edirəm ki, azərbaycanlıyam!” ifadəsi bu gün hər bir ləyaqətli ölkə vətəndaşının həyat düsturuna çevrilib.




Azərbaycan beynəlxalq miqyaslı yarışlara, festivallara, qlobal forumlara, konfranslara, bir sözlə, nüfuzlu tədbirlərə ev sahibliyi edir. Bu miqyaslı tədbirlərin keçirilməsi ölkəmizə həm siyasi, həm də iqtisadi qazanc gətirir. Belə ki, təşrif buyurmuş hər bir qonaq respublikamızda yatırımlar üçün əlverişli şəraitin və imkanların olmasını, eyni zamanda sabitliyin hökm sürdüyünü görür. Bu mənada beynəlxalq tədbirlər investisiya cəlbi üçün də böyük əhəmiyyət kəsb edir, eləcə də Dağlıq Qarabağ probleminin həllində həqiqətin təbliği, ölkəmizin səviyyəsinin nümayişi baxımından da önəmlidir. İstənilən beynəlxalq tədbirlər, həmçinin idman yarışları yeni dostların qazanılması deməkdir.

Bu gün dahi şəxsiyyət Heydər Əliyevin ideyaları yaşayır və xalqımıza düzgün yol göstərir. Azərbaycan dövləti ulu öndərimizin layiqli siyasi varisi cənab İlham Əliyevin rəhbərliyi ilə daha yüksək zirvələrə doğru inamla irəliləyir. Bundan sonra da ölkənin uğurlu inkişafı üçün əlindən gələni edəcəyinə söz verən dövlət başçısı İlham Əliyev demişdir: “Bizim siyasətimiz Azərbaycan xalqının maraqlarına xidmət göstərir. Azərbaycan xalqı daxili siyasətdə olduğu kimi, xarici siyasət sahəsində də dövlət başçısının yürütdüyü xətti tam şəkildə dəstəkləyir. Azərbaycan dövlətinin möhkəmləndirilməsi, Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi mənim üçün və bilirəm ki, hər bir Azərbaycan vətəndaşı üçün ən başlıca vəzifədir, ən başlıca məqsəddir”. Prezident İlham Əliyevin ötən illər ərzində yürütdüyü uğurlu siyasət nəticəsində Azərbaycanın regional və beynəlxalq nüfuzu getdikcə artıb, Azərbaycanın siyasi sabitliyi dünya ölkələri üçün nümunədir. Çevik və prinsipial xarici siyasət nəticəsində xarici təhlükələrin qarşısı alınır, dünya ölkələri ilə qarşılıqlı maraq doğuran hərtərəfli əlaqələr yaradılır. Ölkəmizin Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazda geosiyasi, geoiqtisadi və hərbi-geostrateji mövqeləri daha da güclənib.

Cənab İlham Əliyevin prezidentliyi dövründə ölkədə ictimai və sosial xidmətlər sahəsində ciddi institusional islahatlar aparılıb. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar Agentliyi təsis edilib, respublikanın bir neçə bölgəsində “ASAN xidmət” mərkəzləri yaradılıb. Bu gün dünyada Azərbaycan brendi kimi tanınan bu mərkəzlərə 2013-2018-ci illər ərzində 24 milyona yaxın müraciət daxil olub. Prezident İlham Əliyevin təşəbbüsü ilə Avropa və Asiyanı birləşdirən Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması istiqamətində də böyük işlər görülüb. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars kimi nəhəng layihələrin həyata keçməsi, ölkəmizin ümumilikdə Avropanın gələcək enerji təhlükəsizliyində mühüm tərəfdaş missiyasını üzərinə götürməsi xalqımızın dünya arenasında layiqli yerini təmin edir. Azərbaycan informasiya təhlükəsizliyi baxımından da mühüm addımlar atır. Bu gün peyklərimiz vasitəsilə Azərbaycan telekanalları dünyaya öz verilişlərini təqdim edə bilirlər. Azərbaycan telekommunikasiya sahəsində də xarici tərəfdaşlardan asılılığını tam aradan götürübdür. Kosmik sənayenin inkişafı bu sahədə beynəlxalq əməkdaşlığımızı da dərinləşdirir. Biz dünyanın bu sahədə böyük təcrübəyə malik olan qabaqcıl şirkətləri ilə sıx əməkdaşlıq edirik. Azərbaycanın kosmik sənayedə əldə etdiyi uğurlar, eyni zamanda qeyri-neft sektorumuzu inkişaf etdirir, “Şimal-Cənub” beynəlxalq nəqliyyat dəhlizinin bir hissəsi olan Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolu 18 sentyabr 2018-ci ildə istifadəyə verilməsi ilə Azərbaycan ərazisində “Şimal-Cənub” Nəqliyyat Dəhlizi Layihəsinin reallaşması üçün bütün işlər başa çatdırılıb. Bu yol turizm və kənd təsərrüfatının inkişafına şərait yaradacaq. Beynəlxalq sferada ölkəmizin mövqelərinin mütəmadi güclənməsinə təkan verən önəmli amillərdən biri də qlobal enerji təhlükəsizliyi sahəsində Azərbaycanın getdikcə artan rolu və həyata keçirdiyi fəal investisiya siyasətidir. Real faktdır ki, hazırda Azərbaycan dünyanın ən aparıcı potensial investorlarından birinə çevrilmişdir.

**(davamı 2-ci səhifədə)**

## Yaponiyanın Fuci telekanalında Azərbaycan haqqında veriliş yayımlanıb

**Yeni ilin ilk günlərində Yaponiyanın populyar Fuci telekanalı Azərbaycan haqqında veriliş yayımlayıb.**

AZƏRTAC xəbər verir ki, “Dünya” adlı verilişdə Azərbaycanın coğrafi mövqeyi, əhalisi, tarixi və mədəniyyəti haqqında geniş məlumat verilib. Azərbaycanın Yaponiyadan təyyarə ilə 15 saatlıq məsafədə yerləşdiyini qeyd edən aparıcı ölkəmizin çox əlverişli coğrafi mövqeyə sahib olduğunu bildirib. Müstəqilliyini 1991-ci ildə bərpa edən Azərbaycanın qısa zaman kəsiyində əldə etdiyi uğurlar diqqətə çatdırılıb.

Verilişdə Bakı şəhərindəki “Alov qüllələri”, Heydər Əliyev Mərkəzi, SOCAR-ın binası, Bakı Kristal Zalı və digər möhtəşəm tikililərin müasir dizaynı barədə söhbət açılıb. “Alov qüllələri”nin şəhərin rəmzi olduğu qeyd edilib.

Telekanalın Azərbaycan Dövlət Neft və Sənaye Universitetində və Bakı Ali Neft Məktəbində olan çəkiliş qrupu ölkəmizdə yerləşən neft və qaz yataqları barədə də tamaşaçıları məlumatlandırıb.




Eyni zamanda, tamaşaçılara Neft Daşları və Bakı-Tbilisi-Ceyhan neft boru kəməri barədə məlumatlar təqdim edilib. Bundan başqa, Azərbaycan ərazisindəki faydalı qazıntılardan, Naftalan Sağlamlıq Mərkəzi və palçıq vulkanlarından bəhs olunub.

İçərişəhərdə və Nizami küçəsində aparılan çəkilişlər zamanı şəhərin mərkəzində yerləşən bu iki yerin tikililəri ilə tarixi və müasir Azərbaycanı əks etdirdiyi vurğulanıb. Yapon izləyicilər ölkəmizin müasirliyi ilə diqqəti cəlb edən turizm potensialı və mövcud infrastrukturu barədə də ətraflı məlumatlandırılıb.

Tamaşaçılara ölkəmizin rəmzlərindən biri hesab edilən, dünyaca məşhur Azərbaycan xalçaları barədə də geniş məlumat verilib.

Veriliş boyunca azərbaycanlıların çox istiqanlı, mehriban, qonaqpərvər və əməksevər bir xalq olduğu qeyd edilib. Sonda yapon tamaşaçılara bu gözəl ölkəyə səyahət etmək tövsiyə olunub.

**AZƏRTAC**

## SOCAR-ın vitse-prezidenti Parisdə “Metan emissiyalarının azaldılması üzrə rəhbər prinsiplər” adlı tədbirdə iştirak edəcək

**Yanvarın 11-də Fransa Respublikasının paytaxtı Parisdə “Metan emissiyalarının azaldılması üzrə rəhbər prinsiplər” mövzusunda tədbir keçiriləcək.**




SOCAR-dan AZƏRTAC-a verilən məlumata görə, tədbir BP, Eni, Equinor, ExxonMobil, Shell, Total və Wintershall şirkətlərinin təşəbbüsü ilə təşkil olunur.

Tədbirdə SOCAR-ı şirkətin ekologiya üzrə vitse-prezidenti Rəfiqə Hüseynzadə təmsil edəcək.

Qeyd edək ki, qlobal istiləşmə və iqlim dəyişmələri bu gün bütün bəşəriyyəti narahat edən problemlərdəndir. Bu kimi məsələlərin həllində SOCAR beynəlxalq əməkdaşlığa xüsusi önəm verir.

**AZƏRTAC**

# Bakı Kitab Mərkəzi



## Hər kəsin sevimli məkanı

**Artıq 2018-ci il uğurları, problemləri, yaddaqalan hadisələri ilə tarixə qovuşdu. Bu il də ölkəmizdə xalqımızın inkişafına, maddi-mənəvi rifahının yaxşılaşmasına xidmət edən saysız-hesabsız proqramlar, layihələr, islahatlar həyata keçirildi və bu layihələrin təməlində isə milli təhsilə, maarifçiliyə xüsusi yer ayrıldı. Belə layihələrdən biri də ölkənin birinci xanımı Mehriban Əliyevanın təşəbbüsü və dəstəyi ilə açılan Bakı Kitab Mərkəzi oldu. 2018-ci ilin sentyabr ayından paytaxt sakinlərinin istifadəsinə verilən, sözün əsl mənasında, nağıllar aləmini xatırladan Mərkəz kitabsevərlərə dövlətimizin dəyərli hədiyyəsidir. Bura gələnlərin sayı gündən-günə artır. Bu günlərdə Bakı Kitab Mərkəzinin direktoru Günel Rzayeva ilə görüşdük.**



**–Günel xanım, ilk olaraq Bakı Kitab Mərkəzinin yaranması haqqında məlumat verməyinizi xahiş edirəm. BKM necə yarandı?**

–Bakı Kitab Mərkəzi 2018-ci ilin sentyabr ayından fəaliyyətə başlayıb. Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə yaradılmış və kitab satışına tamamilə fərqli bir konsepsiya ilə başlayan Bakı Kitab Mərkəzində Azərbaycan, rus, türk, ingilis, fransız, alman, ərəb və digər dillərdə istənilən janrlarda kitablar təqdim olunur. Təkcə onu deyim ki, açılış zamanı kitabxanada 40000-ə yaxın kitab var idi. Bu günə qədər isə bu rəqəm 100 000-i keçib. Əsas məqsədi insanlarda xalqın mədəni, mənəvi dəyərlərini və faydalı bilikləri daşıyan kitaba maraq oyatmaq olan Mərkəzdə mütəmadi olaraq müxtəlif kitab təqdimatları, məşhur yazıçı, şair, sevilən mədəniyyət və incəsənət xadimləri ilə görüşlər, ustad dərsləri, uşaq və yeniyetmələrdə mütaliəyə həvəsi artırmaq üçün tanınmış insanların iştirakı ilə oxu günləri, dil kursları, beynəlxalq təşkilatlar və xarici səfirliklər ilə bərabər tədbirlər təşkil olunur.

Mərkəzin 1-ci və 2-ci mərtəbələrində Heydər Əliyev Fondunun nəşrləri öz yerini tapıb. Burada Fondun ulu öndər Heydər Əliyev, eyni zamanda tariximiz, mədəniyyətimiz, incəsənətimiz, görkəmli şəxsiyyətlərimiz haqqında bir-birindən maraqlı nəşrləri paytaxt sakinlərinin ixtiyarına verilib. Eyni zamanda, 1-ci mərtəbədə Azərbaycan və xarici dillərdə dünya bestsellerləri, incəsənətə aid olan gözəl albomlar, turist bələdçiləri, musiqi kitabları və notlar satılır. 2-ci mərtəbədə isə oxu zalı, zəif görmə qabiliyyəti olan insanlar üçün ayrı, uşaqlar üçün isə ayrıca guşələr, dəftərxana malları şöbəsi, müxtəlif ədəbi və mədəni tədbirlərin keçirilməsi üçün təqdimat hissəsi və elmi fəaliyyətlə məşğul olanlar üçün nəzərdə tutulmuş tədris guşəsi fəaliyyət göstərir.

Mərkəzin layihəsi üzərində işlənilərkən kitabsevərlərin müxtəlif nəşrlər əldə etməsi ilə yanaşı, burada asudə vaxtlarını xoş keçirmələri üçün də hər bir şərait yaradılıb.

**–Qeyd etdiniz ki, Mərkəzin açılmasında əsas məqsəd insanlarda xalqın mədəni, mənəvi dəyərlərini və faydalı bilikləri özündə cəm edən kitaba maraq oyatmaqdır. Sizcə, bu qədər elektron informasiyalar, internet səhifələri, saytların qarşısında kitaba dönüş mümkün olacaqmı?**

–Azərbaycanda vaxtilə kitaba böyük maraq göstərilib, mütaliə sevənlərin sayı isə digər ölkələrlə müqayisədə dəfələrlə çox olub. Heydər Əliyev Fondunun təşəbbüsü ilə yaradılan Bakı Kitab Mərkəzi intellektual səviyyəni yüksəltmək, bilik və savad almaq üçün ən mühüm şərt olan mütaliə kimi ənənəni yaşatmaq və gələcək nəsillərə ötürmək kimi vacib məsələyə xidmət edir. Əminliklə deyə bilərəm ki, bu Mərkəzin istifadəyə verilməsi kitaba marağı yenidən bərpa etməklə yanaşı, eyni zamanda, uşaq və yeniyetmələrdə kitaba olan sevgini artıracaq, onlara mütaliə etmək vərdişləri aşılayacaq. Fəaliyyətə başladığımız ilk gündən müşahidə olunan maraq və oxucu axını bunu deməyə əsas verir. Gənc nəslin bilikli, savadlı və yüksək intellektual səviyyədə yetişməsinə Azərbaycanın Birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu hər zaman xüsusi diqqət göstərir. Bakı Kitab Mərkəzi bu diqqətlə tam əhatə olunub.

**–Bu günə qədər reallaşdırdığınız layihələr haqqında məlumat verməyinizi istərdim.**

–Bakı Kitab Mərkəzi 4 aydır ki, fəaliyyət göstərir. Təvazökarlıqdan uzaq da olsa, deyim ki, bu müddət ərzində Mərkəzdə bir gün də belə qonaqsız, tədbirsiz keçməyib. Bunları sadalamaqla bir söhbətə sığışdırmaq bir az çətin olar. Məsələn, Heydər Əliyev Fondunun təşkilatçılığı və Mədəniyyət Nazirliyinin dəstəyi ilə keçirilən "Nəsimi - şeir, incəsənət və mənəviyyat festivalı" çərçivəsində görkəmli şair və mütəfəkkir İmadəddin Nəsiminin yaradıcılığına həsr olunmuş mühazirələr keçirilmiş, ölməz nasirimiz, xalq yazıçımız Maqsud İbrahimbəyovun xatirə gecəsi, Azərbaycan Bəstəkarlar İttifaqının sədri, UNESCO-nun "Sülh artisti", Azərbaycanın xalq artisti, AMEA-nın müxbir üzvü, professor Firəngiz Əlizadəyə həsr olunmuş "Firəngiz Əlizadə - dünya şöhrətli bəstəkarımız" adlı kitabın təqdimatı, dahi Azərbaycan şairi və dramaturqu Hüseyn Cavidin xatirəsinə həsr olunmuş gecə, "Yazıçı və dialoq" layihəsi çərçivəsində xalq yazıçısı Anar, tanınmış yazıçı Çingiz Abdullayevlə görüş, "Tarixlə üz-üzə" layihəsi çərçivəsində Azərbaycanın dövlət xadimi, diplomat, alim, tarix elmləri doktoru Həsən Həsənovun rus və Azərbaycan dillərində "Makedoniyalı İsgəndər və Atropat" adlı kitabının təqdimatı və bu kimi onlarla tədbirlər keçirilib. Eyni zamanda, Fransanın tanınmış bəstəkarı, novator klarnetçi və yazıçı Elios Azule, həmin ölkənin tanınmış kitab naşiri Katrin Kormeri, "Ulduzla oxu" layihəsi çərçivəsində sevimli aktyorumuz, xalq artisti Fəxrəddin Manafov, əməkdar artistlər - müğənni Miri Yusif və telejurnalist Nərgiz Cəlilova və başqaları ilə görüşlər keçirilmişdir.

Bunlarla yanaşı Mərkəzdə dil kursları, dekorativ-tətbiqi sənət dərnəkləri də təşkil olunur. Artıq oktyabr ayından uşaqlar, yeniyetmələr və eyni zamanda, böyüklər üçün ödənişsiz danışıq klubları təşkil olunur. Burda həftədə bir dəfə olmaqla 5 xarici dil tədris olunur. Bundan başqa 5-12 yaş arası uşaqlar üçün nəzərdə tutulan tətbiqi-dekorativ sənət kurslarımız da çox maraqla qarşılandı. Sizin vasitənizlə bir daha bildirmək istəyirəm ki, sadaladığım bütün bu tədbirlərin hamısı ödənişsiz həyata keçirilir. Çünki bu layihə sırf sosial layihədir.

Mehriban xanım Əliyevanın daha bir nəcib təşəbbüsü ilə Mərkəzdə gözdən əlillər üçün xüsusi guşə də yaradılıb. Biz bir neçə dəfə tədbirlər təşkil edərək Azərbaycan Gözdən Əlillər Cəmiyyətinin üzvlərini dəvət edərək onları görmə qabiliyyəti zəif olan insanlar üçün nəzərdə tutulmuş bu xüsusi guşədə qurulan avadanlıqlarla, Brayl üsulu ilə yazılan kitablarla tanış edib, gələcək əməkdaşlıq məsələlərini müzakirə etmişik.

**–Bakı Kitab Mərkəzi nəşriyyat kimi də fəaliyyət göstərir. Bu barədə nə deyə bilərsiniz?**

–Bəli, Mərkəzin fəaliyyətinin bir istiqaməti də kitab nəşri ilə bağlıdır. Bu bizim üçün çox vacib amillərdən biridir. Ona görə ki, əgər biz ədəbiyyatı və mütaliəni təbliğ ediriksə, həm də buna olan münasibətimizi, zövqümüzü də təbliğ etməliyik. Qeyd etdiyim kimi, Bakı Kitab Mərkəzi tək satış mərkəzi deyil, həm də ədəbiyyat ocağıdır. Burda oxu zalı var, müxtəlif tədbirlərin keçirilməsi üçün hər cür şərait yaradılıb, həm də nəşriyyat evi fəaliyyət göstərir ki, müvafiq yöndə, Azərbaycançılıq ideologiyasına xidmət göstərən kitablar nəşr etməklə gənc nəsli düzgün yönləndirək, onlarda düzgün baxış nöqtəsini formalaşdıraq.

Fəaliyyətə başladığımız gündən bəri kitabxanamızda 100000-dən artıq kitab olub. Biz Rusiyadan, Türkiyədən və başqa ölkələrdən kitablar sifariş veririk. Oxucu istədiyi kitabı bizim Mərkəzdən tapa və yaxud da sifariş verə bilər. Amma buna baxmayaraq biz həm də kitab nəşrinə də başlamışıq. Xarici ölkələrdən gətirdiyimiz ədəbiyyatlar sözsüz ki, maraqlı və orijinaldır. Lakin bu məsələdə incə bir məqam var ki, körpə balalarımız başqa xalqların nağıllarını, dastanlarını oxuya-oxuya, eşidə-eşidə öz nağıl qəhrəmanlarımızı unudur və yaxud da heç tanımırlar. Düzdür, bizim Cırtdan, Məlikməmməd, Ağ atlı oğlan kimi nağıl qəhrəmanlarımız var. Artıq yeni nağıl qəhrəmanları da yaratmalıyıq ki, uşaqlarımız bu qəhrəmanları sevərək qəbul etsinlər. Buna görə də balacalarımız üçün yeni il ərəfəsində "Yeni il hədiyyələri" adlanan kitab nəşr etmişik. Kitabın mövzusu iki qəhrəman balaca bacı və qardaşın başına gələn əhvalatlardan bəhs edir. Nağıl təzə yazılıb və inanıram ki, uşaqlar bu nağılı çox sevəcəklər. Onu da qeyd edim ki, bu kitabların bir hissəsi Heydər Əliyev Fondu tərəfindən uşaq evlərinə yeni il hədiyyəsi kimi göndərildi.

Digər tərəfdən isə gənc nəslin nümayəndələri arasında geniş dünyagörüşə, bədii təfəkkürə, böyük potensiala malik yazarlarımız var. Onları üzə çıxarmaq, tanıtmaq, yaradıcılıqlarına dəstək olmağa çalışacağıq. İlk olaraq Moskvada yaşayan həmvətənimiz, yazıçı Samid Ağayevin Azərbaycan və rus dilində "Bakıdan sevgilərlə" adlı tarixi-fantastik romanını nəşr etmişik. 1918-ci il mart hadisələrini əks etdirən bu dəyərli, orijinal romanı Azərbaycan və rus dilində nəşr etməkdə məqsədimiz gənclərimizə tariximizi olduğu kimi, təhrifsiz çatdırmaqdır. Gələcəkdə belə nəşrləri kütləvi şəkildə həyata keçirməyi düşünürük. Ümumiyyətlə, tariximizi, ədəbiyyatımızı, mütaliəni təbliğ edən hər addımı var qüvvəmizlə dəstəkləyirik. Buna görə isə, ilk növbədə, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyevaya minnətdarlığımızı bildiririk. Tariximizin, ədəbiyyatımızın yaşanması üçün bu nəcib missiyanı həyata keçirməkdə hər zaman onun diqqət və qayğısını hiss edirik.

**–Müsahibə üçün təşəkkür edirik.**

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**







# Azərbaycan yüksək zirvələrə doğru inamla irəliləyir

**(əvvəli 1-ci səhifədə)**

Bunun nəticəsidir ki, Azərbaycan sərmayəsini gözləyən müxtəlif xarici dövlətlərin sayı durmadan artır, ölkəmizə sözügedən məsələ ilə əlaqədar ünvanlanan əməkdaşlıq təklifləri çoxalır. Böyük maliyyə imkanlarına malik Azərbaycan isə öz növbəsində, maraqlarının təmin olunması şərtilə son bir neçə ildə ayrı-ayrı xarici ölkələrə artıq dəyəri milyardlarla dollar həcmində olan investisiyalar yatırır. Prezident İlham Əliyev bununla əlaqədar demişdir ki, xaricə qoyduğumuz milyardlarla ölçülən investisiyalar Azərbaycanın maraqlarını təmin edir. Türkiyənin İzmir şəhərində 2018-ci ilin oktyabr ayında "Star" neft emalı zavodunun açılış mərasimi keçirildi. Dünyanın bir çox ölkələrində hələ də maliyyə böhranının hökm sürdüyü indiki zamanda "Star" kimi nəhəng bir müəssisəni ərsəyə gətirilməsi Azərbaycanın iqtisadi qüdrətini göstərir. Bütün bunlar əlbəttə ki, ulu öndərin layiqli siyasi varisi, dövlət başçısı İlham Əliyevin həyata keçirdiyi düzgün və məqsədyönlü iqtisadi siyasətinin nəticəsidir. "Star"ın təməli 2011-ci il oktyabrın 25-də Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən qoyulub. Türkiyənin İzmir şəhərində "Star" neft emalı zavodunun açılışı dövlətimizin bu istiqamətdə həyata keçirdiyi uğurlu və uzaqgörən siyasətinin nəticəsində baş vermişdir. Cənab Prezident açılış mərasimində dost və qardaş ölkə arasındakı münasibətlərə xüsusi önəm verərək deyib: "Bu gün bu nəhəng layihənin açılışı onu göstərir ki, biz qarşımıza qoyduğumuz bütün hədəflərə uğurla çatırıq. Bu, bir daha onu göstərir ki, belə nəhəng layihələrin icrası üçün hər iki ölkə rəhbərlərinin güclü siyasi iradəsi var. Bu layihənin həyata keçməsinin əsas səbəbi Türkiyə-Azərbaycan dostluğu, qardaşlığıdır". Bu layihənin reallaşdırılması Azərbaycan-Türkiyə qardaşlığının daimi olduğunu bir daha göstərdi. Zavodun işə düşməsi ilə gələn gəlirlərdən səmərəli istifadə olunması, onların yenidən önəmli sahələrə yatırılması ölkəmizə böyük faydalar verəcək. "Star" neft emalı zavodu ilə Türkiyə qardaşlıq əlaqələrimizin strateji miqyasını daha da gücləndirmiş oldu. Ümummilli lider Heydər Əliyevin xalqımızın müstəqil, azad və rifah halında yaşaması üçün yaratdığı və memarı olduğu Azərbaycan bu gün etibarlı əllərdədir. Möhtərəm Prezidentimiz İlham Əliyevin uğurla davam etdirdiyi ulu öndərin siyasi kursunu hər bir azərbaycanlı dəstəkləyir və müstəqilliyimizin qorunması işi qarşımızda ən ümdə vəzifə kimi müəyyən olunmuşdur. Azərbaycanın dövlət müstəqilliyi bizim tarixi nailiyyətimiz və qiymətli sərvətimizdir. Onun qorunub saxlanılması hər birimizin müqəddəs borcudur. Müstəqil Azərbaycan Respublikası bu gün hər bir vətəndaşımız və xaricdə yaşayan soydaşımız üçün əsl qürur mənbəyidir. Çünki onun müəyyənləşdirdiyi dövlət siyasətinin mərkəzində ancaq bir qüvvə - Azərbaycan vətəndaşı dayanır. Bu illər ərzində İlham Əliyev gördüyü işlərlə bir daha sübut etdi ki, o, doğrudan da hər bir Azərbaycan vətəndaşının Prezidentidir. Onun bu gün Azərbaycana rəhbərliyi sözün əsl mənasında müstəqilliyimizin və uğurlarımızın ciddi qarantlarından biridir.

**Eldəniz ABDİYEV,**
**"Məişət Maye Qaz" QSC-nin müfəttişi,**
**YAP Xətai rayon "Məişət Maye Qaz" QSC ərazi üzrə ilk Partiya təşkilatının sədri.**

# 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il Gəncədə təntənə ilə qeyd olunub

**Gəncədə 31 dekabr — Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibəti ilə ümumşəhər tədbiri keçirilib. Tədbirdə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, şəhər ictimaiyyəti, sakinlər və qonaqlar iştirak ediblər. Şəhərin Heydər Əliyev meydanında təşkil olunan tədbir maraqlı anlarla yadda qalıb.**



Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov şəhərin baş meydanında qurulan yeni il şəhərciyini gəzib, burada sakinlər və şəhərə gələn qonaqlar üçün yaradılan şəraitlə tanış olub. Daha sonra Gəncə Regional Mədəniyyət İdarəsi və Gəncə şəhər Gənclər və İdman Baş İdarəsi tərəfindən təşkil olunan müxtəlif proqramlar izlənilib. Gəncənin peşəkar idmançılarının nümunəvi çıxışları tədbirə yeni bir rəng qatıb. Bu xoş çıxışlar Gəncənin 2019-cu il üçün "Avropanın İdman Şəhəri" seçilməsi kimi Gəncə idmançılarının uğurlarından xəbər verirdi. Uğurlu çıxışları ilə dünyanın və ölkənin idman arenalarında müxtəlif nailiyyətlər əldə edən idmançılar Gəncə Şəhər İcra Hakimiyyəti başçısının "Fəxri fərmanı" ilə təltif olundular.

Bayram tədbirində Azərbaycan Respublikasının Xalq artisti Şahnaz Haşımovanın və Əməkdar artist Abbas Bağırovun konsert proqramı ilə çıxışları gəncəlilərdə olduqca xoş əhval-ruhiyyə yaratdı. Gəncə Dövlət Kukla Teatrının kollektivi tərəfindən bayram əyləncəli xoş səhnəciklər təqdim edildi. Cizgi film və müxtəlif nağıl qəhrəmanlarının çıxışları maraqla qarşılandı.

Xatırladaq ki, Gəncədə 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibəti ilə təşkil olunan tədbirlər dekabrın 18-dən start götürüb. Belə ki, şəhərin əsas meydanında hündürlüyü 21 metr olan küknar ağacı qurulub. Burada balacaların asudə vaxtının səmərəli və maraqlı keçməsi üçün müxtəlif atraksionlar quraşdırılıb. Ərazidə "Tir", "Faceart" və sair fərqli əyləncələr üçün də şərait yaradılıb. Şəhərin müxətlif musiqi kollektivləri hər gün saat 17:00-dan etibarən konsert proqramı ilə çıxış edirlər. Dekabırın 31-i gecə saat 00:00-da isə sakinlər və şəhərin qonaqları Yeni ili möhtəşəm atəşfəşanlıqla qarşıladılar.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

# Azərbaycanın prokurorluq orqanları vətəndaşların hüquq və azadlıqlarının qorunması sahəsində zəruri tədbirlər həyata keçirib

**Yanvarın 4-də Baş Prokurorluqda 2018-ci ildə prokurorluğun mərkəzi aparatı tərəfindən görülmüş işlərin və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş əməliyyat müşavirəsi keçirilib.**

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müşavirədə çıxış edən baş prokuror Zakir Qaralov 2018-ci ilin xalqımız üçün çox uğurlu il olduğunu, ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi siyasi kursa sadiq qalan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müdrik rəhbərliyi ilə həyata keçirilən müasir məzmunlu siyasət nəticəsində ölkə həyatının bütün sahələrində böyük nailiyyətlərə, dövlətçiliyimizin daha da möhkəmləndirilməsinə, vətənimizin iqtisadi qüdrətinin artırılması ilə nəticələnən möhtəşəm sosial-iqtisadi inkişaf göstəricilərinə nail olunduğunu, hüquqi və demokratik dövlət quruculuğu prosesləri yeni müstəviyə qaldırılmaqla, dünya birliyinə inteqrasiya proseslərinin dönməz xarakter aldığını diqqətə çatdırıb. Qeyd edilib ki, dövlətimizin başçısının Azərbaycan xalqına ünvanlanmış bayram təbrikində də ötən ilin ölkəmiz üçün əlamətdar olduğu və qarşıya qoyulmuş bütün vəzifələrin müvəffəqiyyətlə icra edildiyi, iqtisadiyyatın, əhalinin pul gəlirlərinin əhəmiyyətli artımına nail olunduğu, mühüm infrastruktur layihələrinin reallaşdırıldığı, ölkəmizin dünya dövlətləri üzrə reytinqinin yüksəlməsi və nüfuzlu beynəlxalq maliyyə qurumları tərəfindən hərtərəfli dəstəklənməsi ilə nəticələnən makroiqtisadi göstəricilərə nail olunduğu xüsusi vurğulanıb.

Bildirilib ki, yola saldığımız il Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin geniş qeyd olunması, aprelin 11-də seçicilərin mütləq əksəriyyətinin Heydər Əliyev siyası kursuna sonsuz inam və etibarının bariz nümunəsi olaraq İlham Əliyevin yenidən dövlət başçısı seçilməsi, şanlı ordumuzun hərbi gücü və qətiyyəti sayəsində Günnüt kəndinin və strateji əhəmiyyətli yüksəkliklərin işğaldan azad edilməsi, regionda sabitliyə, xalqlarımızın firavanlığına və iqtisadi inkişafa böyük töhfə verəcək Cənub Qaz Dəhlizinin, onun tərkib hissəsi olan TANAP layihəsinin istifadəyə verilməsi, Azərbaycanın Dünya Bankının "Doing Business 2019" hesabatında 10 ən islahatçı dövlət siyahısına daxil edilərək ən çox islahat aparan ölkə elan olunmaqla 190 ölkə arasında 25-ci yerdə qərarlaşması, üçüncü peykimizin orbitə çıxarılması ilə əlaqədar Azərbaycanın kosmik sənaye ölkələri arasında mövqeyini daha da möhkəmləndirməsi, ölkəmizin mötəbər beynəlxalq tədbirlərə və idman yarışlarına ev sahibliyi etməsi kimi mühüm hadisələrlə tarixin yaddaşına həkk olunub.

Müşavirədə əldə olunan uğurların qazanılmasında Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın gördüyü mötəbər işlər və həyata keçirdiyi layihələrin əhəmiyyəti xüsusi vurğulanıb.

Diqqətə çatdırılıb ki, 2018-ci il Azərbaycan Respublikası Prokurorluğu orqanları üçün də uğurlu hesabat dövrü olub. Digər hüquq-mühafizə orqanları, ilk növbədə, daxili işlər, ədliyyə və məhkəmə orqanları ilə əlaqəli birgə fəaliyyətin nəticəsi kimi cinayətkarlığın dinamikasında və strukturunda müşahidə olunan ötən illərin müsbət göstəriciləri hesabat dövründə də davam etdirilib. Prokurorluq orqanlarının səyləri, ilk növbədə, Prezident İlham Əliyevin rəhbər göstərişlərindən irəli gələn vəzifələrin yerinə yetirilməsinə, ölkəmizdə dayanıqlı ictimai-siyasi sabitliyin qorunmasına, dövlət maraqlarının müdafiəsinə, mövcud çatışmazlıqların və neqativ təzahürlərin təxirəsalınmadan aradan qaldırılmasına yönəldilib.

Xüsusi vurğulanıb ki, Prezident İlham Əliyevin siyasi iradə, əzm və qətiyyəti hesabına yeni müstəvidə reallaşdırılan dövlətçilik siyasətinin məntiqi nəticəsi olaraq prokurorluq orqanları tərəfindən ötən dövrlərdə olduğu kimi, 2018-ci ildə də ölkəmizdə korrupsiya və rüşvətxorluğa qarşı kəsərli mübarizə uğurla davam etdirilib. Baş İdarə tərəfindən digər cinayət işləri ilə yanaşı, qida təhlükəsizliyi, tikinti və şəhərsalma tələblərinin pozulması, həmçinin bank sektorunda yol verilmiş qanunsuzluqlarla əlaqədar bir sıra aktual cinayət işləri üzrə intensiv araşdırmalar aparılır. Baş İdarənin səmərəli fəaliyyəti nəticəsində Avropa Şurasının Korrupsiyaya qarşı Mübarizə Aparan Dövlətlər Qrupu (GRECO) və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) kimi mötəbər beynəlxalq təsisatlar tərəfindən verilmiş tövsiyələrin böyük əksəriyyəti uğurla yerinə yetirilib.

Hesabat dövründə Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsi tərəfindən respublikada ictimai rezonansa səbəb olmuş bir sıra cinayətlərin, o cümlədən qəsdən adamöldürmə cinayətlərinin keyfiyyətli istintaq edilməsi və təqsirli şəxslərin ifşa olunaraq məhkəmə məsuliyyətinə verilməsi təmin edilib.



Ötən il Daxili İşlər Nazirliyinin, Dövlət Təhlükəsizliyi Xidmətinin və Baş Prokurorluğun peşəkar əməkdaşlarından ibarət istintaq-əməliyyat qrupu tərəfindən həyata keçirilmiş tədbirlərlə Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsində böyük ictimai rezonansa səbəb olan bir sıra cinayət işlərinin istintaqı müvəffəqiyyətlə aparılıb. Bu işlər arasında radikal dindar Yunis Səfərovun iyulun 3-də Gəncə Şəhər İcra Hakimiyyətinin başçısına və polis əməkdaşına qarşı məqsədyönlü şəkildə əvvəlcədən planlaşdırılmış terror aktı, həmçinin ölkəmizin konstitusiya quruluşunun zorla dəyişdirilməsi, terrorçuluq və sair xüsusilə ağır cinayət əməlləri törətdiklərinə görə istintaq edilən iş üzrə mütəşəkkil dəstənin üzvləri olan 18 nəfərin təqsirləndirilən şəxs qismində cəlb olunaraq barələrində həbs qətimkan tədbirlərinin seçilməsi təmin edilib. Həmçinin 11 nəfər təqsirləndirilən şəxs qismində cəlb olunaraq barələrində beynəlxalq axtarış elan olunub. Hazırda cinayətlərin törədilməsinə aidiyyəti olan bütün şəxslərin və cinayət xarakterli bütün xüsusatların müəyyənləşdirilməsi istiqamətində intensiv istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Bundan başqa, Yunis Səfərovun müdafiəsi adı altında radikal dini yönümlü bir qrup şəxs tərəfindən Gəncə Şəhər İcra Hakimiyyətinin inzibati binasının qarşısında zorakılıq aktları, hakimiyyət nümayəndələrinə silahlı müqavimət göstərilməsi ilə müşayiət olunan kütləvi iğtişaş törədilməsi, xidməti vəzifələrini yerinə yetirən iki polis əməkdaşının qəsdən öldürülməsi və sair faktlar üzrə ibtidai istintaqı aparılan cinayət işi üzrə 59 nəfər təqsirləndirilən şəxs qismində cəlb edilməklə barələrində həbs qətimkan tədbiri seçilib, bir nəfər barəsində isə həbsli axtarış elan olunub. Həmin cinayət işindən 36 şəxs barəsində 4 cinayət işi ayrıca icraata ayrılaraq baxılması üçün Gəncə Ağır Cinayətlər Məhkəməsinə göndərilib. Hazırda cinayət işi üzrə digər şəxslər barəsində istintaq davam etdirilir.

Cinayətkarlığa qarşı mübarizə sahəsində terrorçuluq, müxtəlif xarakterli ekstremizm təzahürlərinə qarşı həyata keçirilən mübarizə tədbirləri də diqqət mərkəzində saxlanılmaqla yanaşı, cinayəti doğuran səbəb və şərait aşkarlanaraq müvafiq qabaqlayıcı tədbirlər görülüb.

Müşavirədə Azərbaycan Respublikası Prezidentinin "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" 2017-ci il 10 fevral tarixli Sərəncamı ilə məhkumların və təqsirləndirilən şəxslərin hüquqlarının etibarlı təminatı sahəsində görülmüş işlər yüksək qiymətləndirilib. Sərəncamda müəyyən edilmiş vəzifələrin vacibliyi bir daha vurğulanıb.

Baş prokuror dövlət ittihamının müdafiəsi zamanı mənfi hallara yol vermiş əməkdaşlar barəsində ciddi tədbirlər görülməsi, eləcə də bu sahədə əsaslı dönüş yaradılmasına dair konkret tapşırıqlar verib.

Dövlətimizin başçısının gənclər siyasətinə uyğun olaraq, hesabat dövründə prokurorluq orqanlarına işə qəbulun müsabiqə yolu ilə həyata keçirilməsinin prokurorluğun kadr tərkibinin hərtərəfli biliyə və yüksək mənəvi keyfiyyətlərə malik, dövlətçilik ideyalarına sədaqətləri ilə seçilən gənc mütəxəssislər hesabına komplektləşdirilməsi istiqamətində əldə edilmiş müsbət işlər diqqətə çatdırılıb.

Prokurorluq orqanlarında xidməti, icra və əmək intizamının daha da möhkəmləndirilməsi istiqamətində ciddi tədbirlərin görülməsi, bütün struktur qurumlarda möhkəm nizam-intizam şəraitinin yaradılması, aşkar olunan hər hansı nöqsan və çatışmazlıqlara qarşı prinsipiallıq mövqeyindən yanaşılmaqla müvafiq nəticələrin çıxarılması 2018-ci ildə də əsas vəzifələrdən biri kimi diqqət mərkəzində saxlanılıb.

Əməliyyat müşavirəsində prokurorluq orqanlarında informasiya-kommunikasiya texnologiyalarının tətbiqi səviyyəsinin yüksəldilməsi, "Elektron Sənəd Dövriyyəsi" və "Elektron Cinayət" İnformasiya proqramlarının tam fəaliyyət göstərməsi, bu sahədə həyata keçirilən işin səmərəliliyinin artırılması barədə konkret tapşırıqlar verilib. Həmçinin prokurorluğun fəaliyyət istiqamətləri üzrə işin səmərəliliyinə mənfi təsir göstərən hallar ətraflı təhlil olunmaqla, istintaq işi və ibtidai araşdırmaya prosessual rəhbərliyin həyata keçirilməsində, cinayətkar hərəkətlər nəticəsində hüquqi və fiziki şəxslərə vurulmuş zərərin ödənilməsi, vətəndaş müraciətlərinə baxılması və onların qəbulu ilə əlaqədar işin təşkilində yol verilən çatışmazlıqların qısa müddətdə aradan qaldırılması üçün konkret tapşırıqlar verilib.

Baş Prokurorluğun əlaqədar struktur qurumları və müvafiq tabe prokurorlar tərəfindən digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə 2018-ci ilin nəticələrinə görə artım tendensiyası müşahidə edilən cinayətlərin profilaktikası, bağlı qalmış cinayətlərin açılması və təqsirkar şəxslərin müəyyənləşdirilərək cinayət məsuliyyətinə cəlb olunmaları istiqamətində istintaq və əməliyyat-axtarış tədbirlərinin kəsərliliyinin artırılması, xüsusilə də itkin düşmüş şəxslərlə bağlı açılmış axtarış işləri üzərində prokuror nəzarətinin daha da gücləndirilməsi istiqamətində daxili işlər orqanları ilə qarşılıqlı və əlaqəli şəkildə zəruri tədbirlərin görülməsinin zəruriliyi diqqətə çatdırılıb.

